

Əbülfət MƏDƏTOĞLU
madatoglua@mail.ru

# QƏLBİ TORPAQLA SƏSLƏŞƏN ŞAİR

## Adil Babayevin 95 illiyinə

**Bu bir həqiqətdir ki, sözə, şeirə könül verən ruh adamları ölümsüzlüyü haqq edirlər. Onların yaşayan sözü özlərini də yaşadır və beləcə ölümsüzlük qazanan bu insanlar seçilənlərdən olurlar. Öncə Allahın seçdikləri, sonra da oxucunun. Bax bu mənada üzü geriyə, 95 il bundan öncəyə boylananda bu zaman kəsiyində minlərlə, milyonlarla adamın doğulub ölməsi faktını təsdiq etmiş oluruq. Amma bu minlərin, milyonların içində cismən torpaqlaşıb ruhən yaşayanlar da var. Onlardan biri də Azərbaycan ədəbiyyatı tarixində izi, sözü olan Adil Babayevdir...**

Bəli, hələ orta məktəb illərindən tanımışam bu insanı. Daha doğrusu, sözlərinə yazılmış mahnılardan Adil Babayev adlı bir şairin, bir dramaturqun yaşadığını, millətinə aid olduğunu bilmişəm. Və özüm də sözə meylli olduğumdan sonra sözün işığında kitablarını əldə etmişəm, şeirlərini oxumuşam. Xüsusilə onun sonetləri həmişə məni özünə çəkibdir. Bu yığcam şeirlərdə Adil Babayev mənim üçün həm şair, həm rəssam, həm də indiki baxış bucağımdan desəm, operator kimi görünüb. Çünki o, sonetlərində sözü rəsm kimi çəkib. O, rəsmi də operator kimi lentə köçürüb göstərib mənə. Bu üç məqamın hər biri ayrı-ayrılıqda istedad nümunəsidir, peşəkarlıq göstəricisidir. Görünür, Allah Adil Babayevi seçdiyi insanlardan etdiyi üçün onu belə şərəfləndirib - üç qabiliyyəti ona bir anda veribdi! Təbii ki, bu mənim fikrimdi, mənim mülahizəmdi. Və mən də bu fikrə, bu mülahizəyə onun öz söz dünyasından baxaraq, o dünyaya istinad edərək gəlib çıxmışam.

Adil Babayev yazır ki:

**Əbədi tərk edəndə bu işıqlı həyatı,**
**Fikrimizin vüsəti, eşqimizin qanadı**
**Sözün varlığı ilə görünsün bu dünyada.**

Bu sonetdə demək olar ki, hər şey var. İnsanın olumdan ölümə gəlməsi, bu işıqlı dünyanı tərk etməsi. Amma bəs, qalan izlər? Bax elə qalanlar da fikrimiz, əməlimiz, eşqimiz və nəhayət, onların hopduğu sözdür. Bu söz bizi, indiki məqamda isə Adil Babayevi yaşadan sözdür!

Şair yaşadığı dünyanın hər üzünü görməyə, hər üzündən işıqlı nə isə götürüb onun təravətini, odunu, gözəlliyini və eyiblərini öz sözünə büküb oxucuya təqdim edir. Amma bu elə-belə təqdimat deyil, düşündürücü və nəticə çıxarılmasını tələb edən təqdimatdı. Bu sonetin ifadə etdiyi mənaya, məqama diqqət yetirək. Şair yazır ki:

**Qalsaydı indiyəcən ilk od tapan insan**
**Baxıb geniş aləmə odların arasından**
**Yəqin həm sevinərdi, həm xəcalət çəkərdi.**

Əgər diqqət yetirsəniz burda odu ilk tapan insanın simasında bütün insanların oda münasibəti ifadə olunub. Çünki o od insanın yaşamasına zəruri olan bir vasitədir.

Amma insan odu həm də yaşadığı dünyanı cəhənnəmə çevirmək üçün də istifadə edir. Özünün isindiyi ilə başqalarını yandırıb-yaxır. Məhz bu mənada da şairin dediyi həmin o ilkin nüans ortaya çıxır: insan və od! O həm isidir, həm də yandırır. İkisini də idarə edən isə insandı. Bax elə oxucunu düşündürən də, baxışlarının formalaşmasına kömək edən də şairin sadə, amma qətiyyətli məntiqidi.

Şair Adil Babayev öz yaradıcılığında demək olar ki, mövzu məhdudiyyətini hiss etməmişdi. O istər əmək adamından, istər təbiətdən, istər sevgidən, istərsə də adi bir uşaq təbəssümündən də şeir yazanda özü kimi yazıb. Öz səmimiyyətini, öz duyğularını ortaya qoyub.



Təsəvvür edin ki, hər bir valideyn, hər bir insan birmənalı şəkildə olumun ölümlə başa çatacağını bilir. Amma hər kəs ölümdən sonra övladlarına nə qoyub gedəcəyini düşünmür. Adil Babayev isə yazır:

**Heyrətə salmasın sizi sözlərim,**
**O gün gələ bilər, lap bu gün, sabah.**
**Solmasın qızımın qara gözləri,**
**Oğluma düşməsin etdiyim günah.**

Görün nə qədər sadə, səmimi etirafdı bu, istəkdi bu. Əslində Adil Babayev kimi insanların hamısı bu əxlaqla, bu düşüncəylə baxıblar cəmiyyətə, zamana. İstəməyiblər ki, özlərindən sonra övladları onların günahlarının acısını, xəcalətini çəksinlər. Şükürlər olsun ki, Adil Babayev kimi insanlar düşündüklərini özlərindən çox-çox uzaq tuta biliblər.

Yəni onların nə övlad üçün, nə millət üçün "üz qaraları" qalmayıb.

Belə olan halda Adil Babayevin sevgilisinə, eləcə də oxucusuna üz tutub bu misraları söyləməsi həm səmimidi, həm də inandırıcıdı.

**Biz nəyik, sevgilim? Bir can, bir ürək,**
**Sevincim də sənsən, nisgilim də sən.**
**Qəlbim illər boyu həsrət çəkərək**
**Tək səni seçibdi qızlar içində.**

Çox səmimi, çox duyğusal bir poetik nümunə. Elə bu misraların işığında dünyanın ən gözəl qızına da Məcnun sevgisini etiraf etmək olar. Çünki bu misralardakı ruhun mayası paklıq və bir də sevgiyə inamdı. Məhz həmin müstəvidə dayanıb başqa bir şeirə üz tutanda düşüncələrimdə yanılmadığıma bir daha əmin oluram. Şair yazır ki:

**Getdin, elə bildin unutdum səni,**
**Küsdün, elə bildin etibarsızam.**
**Eşqimin bu həzin xatirəsini**
**Gərək ahım ilə qəlbimə yazam.**

Təbii ki, bu cür sevgisi, bu cür səmimiyyəti olan şairin həsrəti də, çəkdiyi ah da səmimidi. Ona görə ki, hər şey Tanrıdan gəlir. Tanrıdan gələn isə aşiqin, bu yerdə isə şairin həm ilham mənbəyinə çevrilir, həm də səmimi pıçıltılarına.

Bəli, şair Adil Babayev özünün bütün yaradıcılığı boyu sözün qayğısına elə qalıb, sözdən elə istifadə edib ki, oxucu onu axtarıb, söz oxucudan qaçmayıb. Bunu Adil Babayevin bütün yaradıcılığı boyu izləmək mümkündü. Hətta şair yazanda ki:

**Bir gün insanlara biganə olsam,**
**Bir gün qayğılardan kənarda qalsam,**
**Bir canlı meyidə dönmüşəm demək.**

Düşünürəm ki, bu bəndin özündə mənim dediklərim, daha doğrusu, Adil Babayevin yaradıcılığından çıxartdığım nəticə özünü təsdiq edir. Deməli, şair sözü oxucu sözünə çevrilmək haqqını qazanır.

Yanvarın 27-də dünyaya gəlib Adil Babayev. 1925-ci ildə Naxçıvanda doğulan Adil Babayevin 95 yaşı tamam olur. Mən qəsdən bu xatırlamaya üz tuturam. Demək istəyirəm ki, Naxçıvanda doğulan şairin ilk yaradıcılıq nümunələri Tbilisidə oxuduğu iki illik ali müəllimlik kursunda daha qabarıq üzə çıxıb. Elə ilk şeirləri də Gürcüstanda çap olunub. Onun həyat yolunu izləyənlər, yaradıcılığını araşdıranlar bu insanın bir şəxsiyyət kimi də bütövlüyünü xüsusi vurğulayıblar. Mənə onu şəxsən tanımaq nəsib olmasa da, oxuduqlarımdan gəldiyim qənaət budur ki, Adil Babayev özünün bütün yaradıcılığını ədəbiyyatımızın, sözümüzün xidmətinə veribdir. İstər etdiyi tərcümə əsərlərində, istər dramaturgiya sahəsində onun yeri, sözü olubdur. Buradaca onu da vurğulayım ki, Adil Babayevin layiqli varisi olan, Azərbaycanın ədəbi ictimaiyyəti tərəfindən sayılıb-sevilən, dəyərli aydınımız Etibar Babayevin bir canlı nümunə kimi göstərdiyi xidmətlər Adil Babayevə məni bir köynək də yaxınlaşdırıb. Həm bu ailə bağlılığından şairi bir az da dərindən tanımaq imkanı qazanmışam. Ona görə də ədəbiyyatımızın cəfakeşlərindən olan Adil Babayev 95 yaşının işığında ruhu qarşısında baş əyməklə onun söz ömürlü olacağına inamımı məhz öz misraları ilə ifadə edirəm:

**İnsanla torpağın qəlbi səsləşir,**
**Torpaq insan ilə müqəddəsləşir.**
**Torpaq insan varsa dönür Vətənə!**

**Bəli, şairimiz haqlı deyir, həqiqətən boş səhralar heç də Vətən olmur, o zamana qədər ki, ora insan ayağı dəyir. Söz də o vaxt urvatlı olur ki, onu xiridarı şeirə çevirir. Bu torpağın şeir ustalarından biri də unudulmaz Adil Babayevdir.**

**Ruhu şad olsun!**